# İnsan evinə daxil olduğu zaman və yeməyə başlayarkən Allahı zikr edərsə, şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək üçün yer və şam yeməyindən pay yoxdur

Cabir bin Abdullahdan (Allah ondan razı olsun) Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyi rəvayət edilir: "İnsan evinə daxil olduğu zaman və yeməyə başlayarkən Allahı zikr edərsə, şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək üçün yer və şam yeməyindən pay yoxdur. Lakin insan evinə girərərkən Allahı zikr etməzsə, şeytan öz ardıcıllarına deyər: Gecələməyə yeriniz var. Yemək yediyində Allahı zikr etməzsə şeytan onlara deyər ki, artıq həm gecələməyə yeriniz, həm də yeməkdən payınız vardır.

[Səhih] [Muslim rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) evə girərkən və yeməyə başlamazdan əvvəl Allahı zikr etməyi əmr edir və bildirir ki, əgər bir kəs evinə girərkən və yeməyə başlayarkən Allahı "bismilləh" (Allahın adı ilə) deyərək zikr edərsə: Şeytan köməkçilərinə deyər: Sizə bu evdə gecələmək və şam etmək üçün pay yoxdur, çünki ev sahibi uca Allahı zikr etməklə öz toxunulmazlığını təmin etdi. Lakin əgər insan nə evə girdiyi zaman, nə də ki, yemək yeyərkən Allahı zikr etməzsə, şeytan öz köməkçilərinə onların bu evdə gecələyib, şam edəcəklərini xəbər verər.

https://sunnah.global/hadeeth/az/show/3037